DOI: https://doi.org/10.36719/2706-6185/55/127-130

**Ramil Usubov**
Bakı Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0004-2587-5580
Ramil.usubov23@gmail.com

# Yeni dünya nizamı: Siyasi perspektivdə Rusiya Federasiyasının mövqeyi

## Xülasə

İkinci Dünya müharibəsindən sonra elmi-texniki və texnoloji inkişafın intensivləşməsi beynəlxalq münasibətlər üçün bir çox struktur dəyişikliyin baş verməsinə səbəb oldu. Bunlardan biri yeni dünya nizamı və bu uğurda aparılan mübarizənin xarakteristikasında baş verdi. Müasir beynəlxalq sistemdə dünya hegemoniyası əsasən regional güc aktorları çərçivəsində müəyyən olunur. Supergüc dövlətlər təsir dairəsi genişləndirmək üçün regional aktorlar ilə əməkdaşlıq etməsi artıq zəruri bir hal alıb. Buna səbəb olan faktorlardan biri isə qloballaşma və onun nəticəsində dövlətlərarası sərhədlərin neytrallaşmasıdır. Mürəkkəb siyasi və iqtisadi əlaqələr hər hansı münaqişənin mənfi təsirini çoxaldır. Bu isə regional aktorların rolunu artırır. Rusiya müasir beynəlxalq sferada regional güc kimi vacib geostrateji mövqeyə malikdir. Rusiya bir çox regiona təsir edə bilən bir aktordur. Avropa, Qafqaz və Asiya kimi böyük qitə və bölgələr ilə sərhədə sahib olması onu yeni dünya nizamında əhəmiyyətli bir siyasi obraza çevirir.

***Açar sözlər:*** *beynəlxalq sistem, dünya nizamı, regional güc, təhlükəsizlik, siyasi periferiya*

**Ramil Usubov**
Baku State University
Master's student
https://orcid.org/0009-0004-2587-5580
ramil.usubov23@gmail.com

# The New World Order: Russia's Position from a Political Perspective

## Abstract

After World War II, the intensification of scientific, technical, and technological development triggered numerous structural changes in international relations. One of these changes was reflected in the emergence of a new world order and the dynamics of competition within it. In the contemporary international system, global influence is increasingly determined through the framework of regional power actors. For superpower states, collaboration with regional actors has become essential to expand spheres of influence. One of the driving factors behind this trend is globalization, which has effectively diminished the relevance of state borders. Complex political and economic interconnections amplify the negative consequences of any conflict, thereby enhancing the role of regional actors. Within this context, the Russian Federation holds a strategically significant position as a regional power in the modern international arena. Russia is capable of projecting influence across multiple regions. Its borders with major continents and regions—including Europe, the Caucasus, and Asia—grant it a crucial geopolitical role, making it a key political actor in the new world order.

***Keywords:*** *international system, world order, regional power, security, political periphery*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

20-ci əsrə qədər dünya nizamı daim hegemon və ya supergüc dövlətlər arasında hərbi-siyasi münaqişə ilə müəyyən olunurdu. Hegemon dövlətlər müharibə və siyasi mübarizə ilə yeni dünya sisteminin yaranmasına səbəb olurdu. Bu zaman regional güclər kifayət qədər təsir gücünə malik deyildi. Lakin İkinci Dünya müharibəsindən sonra intensivləşən elmi-texniki və texnoloji inkişaf beynəlxalq münasibətlər anlayışına və yeni dünya nizamının formalaşmasına yeni bir perspektiv gətirdi. Texnoloji və elmi inkişaf qloballaşmanın sürətlənməsinə səbəb oldu. Dövlətlərarası iqtisadi, siyasi, mədəni və sosial inteqrasiya sərhədlərin neytrallaşmasına səbəb oldu. Müasir dünya nizamında regional güclər onun əsas dayaq nöqtəsidir. ABŞ və Çin arasında baş verən siyasi və iqtisadi rəqabətdə bu açıq şəkildə müşahidə olunur. Rusiya isə bu rəqabətdə hər iki tərəf üçün əhəmiyyətli bir aktordur. Geostrateji və enerji kimi faktorlar Rusiya Federasiyasını bölgə üçün vacib bir aktora çevirir.

**Post-soyuq müharibə dövründə Rusiya Federasiyası və beynəlxalq siyasi sfera**

SSRİ-nin parçalanması Amerikanın soyuq müharibədən qalibiyyətlə çıxmasının göstəricisi idi (Walker, 2022). SSRİ parçalandıqdan sonra Rusiya hədsiz dərəcədə zəiflədi. Yeltsinin prezidentlik dövrü zamanı Rusiya bir çox problemdən zərər görürdü. Yeltsin 1991–1999-cu illər ərzində Rusiya Federasiyasına prezidentlik etmişdi. SSRİ-nin parçalanması dövlət gəlirlərinin azalmasına səbəb oldu. İlk olaraq iqtisadi böhran ilə üzləşirdi. Rubla olan inam azalırdı. Rusiya borcların ödənişlərini gecikdirirdi. Belə bir situasiyada milli sənaye tez bir şəkildə satılmağa başladı. Bu oliqarxların yaranmasına səbəb oldu. Oliqarxlar həmin dövr ərzində idarəetməyə aktiv şəkildə müdaxilə edə bilirdi. Digər bir tərəfdən müasir Rusiya iqtisadi modelindən fərqli olaraq SSRİ daxilində bank sektoru böyük bir əhəmiyyətə malik deyildi. Bu, 1991–1999-cu illər arasında bank sektoru üzrə aşağı göstəricilərin səbəbi idi (Popov, 1999, s. 13–16).

Digər bir tərəfdən Rusiya keçmiş SSRİ-nin xarici siyasət xəttini qorumağa çalışırdı. Bu isə bir çox problemə səbəb olurdu. Həmçinin güclü xarici aktorlar zəif daxili siyasi strukturdan istifadə edərək Rusiya dövlətinə təsir etməyə çalışırdı (Vodovozov, 2026).

Lakin Putinin ilk zamanlarında Rusiyanın xarici siyasətində nisbətən dəyişikliklər etdi. Avropa Birliyi və ABŞ kimi güclü beynəlxalq aktorlar ilə mülayim xarakterli münasibətlər yürütməyə başladı. Çünki zəif Rusiya Amerika və digər dövlətlər ilə mübarizə apara bilməzdi. Bu, Gürcüstan və Ukrayna kimi yeni müstəqillik qazanmış və Qərb yönümlü siyasət yürütmək istəyən dövlətlər üçün fürsət yaratmışdı (Adigbuo, 2026, s. 288–290). Həmçinin NATO bu dövlətlər ilə məqsədyönlü şəkildə əməkdaşlıq edirdi. Təbii ki, Rusiya hökuməti buna göz yumurdu.

Həmçinin Rusiya Federasiyasında hərbi cəhətdən bir çox problem var idi. Sovet Rusiyasının parçalanması ilə Rusiyanın hərbi gücü qat-qat azaldı. Qazaxıstan, Ukrayna və digər dövlətlərin əldə etdiyi hərbi təchizatlar bunun əsas səbəblərindən biri idi. Həmçinin Rusiya iqtisadi cəhətdən orduya kifayət qədər vəsait ayıra bilmirdi. Bu isə ordu personalının azalmasına və nizam-intizamın zərər görməsinə səbəb olurdu. Digər bir tərəfdən isə hazırkı ordu və hərbi təchizatlar struktur olaraq geridə qalmış idi (Netherlands Institute of International Relations, 2011, s. 7–9).

**Tədqiqat**

Yeltsin dövründə bu sahədəki əsas prioritet hərbi personalı və logistikanı saxlamaq idi. Lakin 2000-ci ildən sonra Putin başçılığı ilə bu sahəyə xüsusi diqqət edildi. Putin ilk olaraq iqtisadi olaraq islahatlar həyata keçirdi. Xammal və enerji ixracatına yönəldi. Bu sayədə böyük miqdarda maliyyə gücü qazandı. Bundan sonra hərbi sahəyə kifayət qədər vəsait ayrıldı. Putinin buradakı əsas məqsədi hərbi texnoloji olaraq Rusiyanı inkişaf etdirmək idi. O, idxala bağlı qalmaq istəmirdi. Buna görə ilk öncə yeni hərbi struktur sistem yaradıldı. Sonra müəyyən proqramlar ilə silah texnologiyalarına vəsait ayırdı (Netherlands Institute of International Relations, 2011, s. 12–15).

Rusiya 2000-ci ildən sonra iqtisadi olaraq xammal ixracatına yönəldi. Həmçinin yüngül sənaye sahəsinə də diqqət edilirdi. Bundan sonra Rusiyanın əsas gəlir mənbəyi enerji ixracı oldu. Bu isə bank sektorunun inkişafına səbəb oldu. Rusiya əldə etdiyi xarici kapitalı banklar vasitəsilə dövlət daxili lazımi sahələrə yönləndirirdi. Rusiyada fəaliyyət göstərən bankların böyük bir hissəsi dövlət

nəzarətindədir. 18% isə özəl banklardır (Black Sea Trade and Development Bank, n.d.). Lakin bu, effektiv borc və geri ödəniş barəsində bir çox problem yaradırdı.

2008-ci il böhranına qədər dünya nizamına ABŞ tək liderlik edirdi. Hərbi və siyasi cəhətdən böyük bir potensiala və gücə malik idi. Lakin iqtisadi olaraq güclü görünsə də, bir çox struktur problem var idi. Həmçinin Amerika bir çox səhv xarici siyasi addım ilə islamçı radikalizmin yüksəlməsinə və regional gərginliklərin intensivləşməsinə səbəb olmuşdu. Bu isə bir çox dövlətin güclənməsinə və öz təsir dairələrini artırmasına şərait yaratdı. Post-soyuq müharibə dövründə dövlətlər əsasən öz güclərini bərpa edirdi. 2008 böhranına qədər Amerika tək güc idi və digər dövlətlər siyasi və iqtisadi olaraq inkişaf dövründə idi.

**Yeni dünya nizamında regional güc olaraq Rusiya Federasiyası**

2008 dünya iqtisadi böhranı monopoliar dünya sisteminin parçalanmasının başlanğıcı idi. Amerika artıq əvvəlki kimi mütləq güc deyildi. Həmçinin artıq bir çox regional güc formalaşırdı. Digər bir tərəfdən isə Çin iqtisadi olaraq Amerika ilə rəqabət aparacaq nöqtəyə gəlmişdi. ABŞ–Çin arasında rəqabətin təməli 2008 iqtisadi böhranı idi. Dünyada bir çox regional güc struktural fəaliyyətə başlamışdı. ABŞ-ın iqtisadi böhrana səbəb olması onun daxili süni maliyyə gücü, işsizlik səviyyəsi və kapital axınının dəyişməsi kimi faktorlardan asılı idi (Reserve Bank of Australia, 2025).

Rusiyanın aqressiv xarici siyasəti 2014-cü ildən başlayır. Ukraynanın Avropa Birliyi və NATO ilə yaxın əlaqə qurması Rusiya üçün regional təhlükə idi. Buna görə də 2014-cü ildə Krım bölgəsinə daxil oldu və referendum ilə buranı ilhaq etdi. Təbii ki, bu referendum beynəlxalq sferada legitim sayılmırdı (Russo-Ukrainian War | Research Starters | EBSCO Research, 2022).

Bundan sonra isə 2015-ci ildə Suriya vətəndaş müharibəsinə müdaxilə etdi. Putinin göstərişi ilə 2015-ci il 30 sentyabr tarixində Suriyada hava hücumları həyata keçirildi (BBC, 2015). Bu zaman Rusiya hökuməti burada fəaliyyət göstərən İslam Dövləti kimi terrorçu qruplaşmalara hücum etdiklərini qeyd etdi. Bu tarixdən etibarən Rusiya Əsəd hökumətinə aktiv şəkildə yardım etməyə başladı. Daha sonra 2022-ci ildə Ukraynaya hücum edən Rusiya sanksiya və beynəlxalq təzyiqlər ilə üzləşdi.

Rusiyanın regional, yoxsa qlobal güc olması məsələsində bir çox fərqli görüş var. Lakin çoxşaxəli analiz Rusiyanın bir çox perspektivdə regional güc olduğunu göstərir. İlk olaraq Rusiya iqtisadi olaraq zəif bir dövlətdir. Onun iqtisadi modeli enerji ixracı və yüngül sənaye çərçivəsində formalaşıb. Həmçinin demoqrafik və sosial olaraq qlobal səviyyəli deyil. Hərbi sahədə yüksək saylı ordusu və texniki təchizat həcmi onu önə çıxaran əsas amillərdən biridir. Digər bir faktor isə enerji sahəsidir. Rusiya çoxsaylı neft və qaz yataqlarına malikdir. Bu isə onu beynəlxalq arenada Avropaya qarşı üstün bir hala salır.

Həm demoqrafik, həm də iqtisadi olaraq Qərbi Rusiya intensiv şəkildə inkişaf edib. Rusiya əsas kapitalı qərb hissəsinə yönəldib. Bu isə əhalinin bura transformasiyasına səbəb olub. Buna görə də bölgələrarası fərqlilik kəskin şəkildə artır (Special Report, 2022).

Joe Biden prezident seçildikdən sonra ABŞ xarici siyasəti struktural olaraq dəyişdi (Lazarou et al., 2020, pp. 3–5). Çin ilə Tramp qədər aktiv və intensiv şəkildə mübarizə aparmırdı. Lakin sanksiyalar və uyğur məsələsində beynəlxalq təzyiqlərə davam edirdi. Digər bir tərəfdən isə Rusiyaya qarşı Ukraynanı aktiv şəkildə dəstəkləyirdi. 2022-ci ildən sonra Rusiya və Qərb ölkələri arasındakı münasibət kəskin şəkildə gərginləşməyə başlayıb (Fartyshev, 2025). Başda Amerika olmaqla bir çox Amerika ölkəsi Ukraynaya maddi, hərbi və siyasi olaraq yardım edir. Bu, Rusiyanın bir çox sanksiya və siyasi təzyiq ilə üzləşməsinə səbəb olub. Buna görə də Putin Çin yönümlü siyasət tətbiq etməyə yönəldi. Çin və Rusiya arasında bir çox enerji və iqtisadi əməkdaşlığın planlanmasındakı əsas səbəblərdən biri bu idi.

Hal-hazırda Çin iqtisadi cəhətdən Amerikadan xeyli üstündür. ABŞ-ın istehsal həcmi Çin ilə müqayisə oluna bilmir. Hər nə qədər ABŞ hərbi aspektdə üstün olsa da, bu qısamüddətlidir. Çin hərbi sahəyə yüksək miqdarda vəsait ayırır. Bu isə texnoloji və personal olaraq intensiv inkişafın önünü açır. Belə bir situasiyada Rusiya hər iki dövlət üçün əhəmiyyətli bir müttəfiqdir. İlk olaraq enerji sahəsində Rusiya böyük bir gücə malikdir. Sahib olduğu neft və qaz ehtiyatları ağır sənaye və hərbi texnologiya üçün vacibdir.

Digər bir tərəfdən isə Rusiya coğrafi olaraq əlverişli bir mövqeyə malikdir. Rusiya ilə müttəfiqlik əldə edən dövlət Şərqi Avropa, Qafqaz, Orta Asiya, Asiya olmaqla bir çox regiona təsir edə bilər. Buna görə də Amerika son illərdə Ukrayna–Rusiya məsələsində Rusiya yönümlü bir sülh əldə etməyə çalışır. Tramp Rusiya ilə münasibətləri yumşaltmağa çalışır.

## Nəticə

2008 iqtisadi böhranından sonra Amerika və Çin arasındakı rəqabətin başlanğıcı oldu. Çin artıq dünya hegemoniyasında ABŞ-ın rəqibinə çevrildi. Bu zaman isə regional güc aktorları həmin bölgə üzərində kilid rola sahib oldu. İran, Rusiya, Türkiyə, Hindistan kimi ölkələr Orta Şərq, Asiya, Şərqi Avropa kimi bölgələrdə əhəmiyyətli bir rola malikdir.

Rusiya regional güc olaraq ABŞ–Çin arasındakı mübarizədə kritik bir mövqeyə malikdir. Coğrafi olaraq bir çox regiona çıxışa malikdir. Bu isə Çin üçün əhəmiyyətli bir üstünlükdür. Həmçinin Rusiya sahib olduğu zəngin neft və qaz ehtiyatları hərbi texnoloji sahə üçün vacib bir faktordur. ABŞ Ukrayna–Rusiya məsələsində Tramp liderliyində Putin ilə münasibətləri yumşaltmağa çalışır.

## Ədəbiyyat


1. Adigbuo, E. R. (2026). View of Russia in the post-Cold War era: Geopolitical dynamics and the search for global relevance. *Acjol.org*. https://www.acjol.org/index.php/aku/article/view/3422/3356
2. BBC. (2015, October 1). Russia joins war in Syria: Five key points. *BBC News*. https://www.bbc.com/news/world-middle-east-34416519
3. Black Sea Trade and Development Bank. (n.d.). *Overview of the financial sector in Russia*. https://www.bstdb.org/Overview_of_the_fin_sector_RUSSIA.pdf
4. Fartyshev, A. N. (2025). The geopolitical landscape and Russia's position in multidimensional political space. *Frontiers in Political Science, 7*. https://doi.org/10.3389/fpos.2025.1651223
5. Lazarou, E., Titievskaia, J., & Handeland, C. (2020). *Briefing EPRS | European Parliamentary Research Service*. https://www.europarl.europa.eu/RegData/etudes/BRIE/2020/659382/EPRS_BRI(2020)659382_EN.pdf
6. Netherlands Institute of International Relations. (2011). *Russia's military reforms*. https://www.clingendael.org/sites/default/files/pdfs/20111129_clingendaelpaper_mdehaas.pdf
7. PECIAL REPORT, S. (2022). *The geopolitics of Russia*. https://geopoliticalfutures.com/wp-content/uploads/2022/04/SR_RussianHistory_2022.pdf?mc_cid=839ee5da59&mc_eid=b5d7a8cf2b
8. Popov, V. (1999). The financial system in Russia compared to other transition economies: The Anglo-American versus the German-Japanese model. *Comparative Economic Studies, 41*(1), 1–42. https://doi.org/10.1057/ces.1999.1
9. Reserve Bank of Australia. (2025). *The global financial crisis*. https://www.rba.gov.au/education/resources/explainers/the-global-financial-crisis.html
10. Russo-Ukrainian War | EBSCO. (2022). *EBSCO Information Services*. https://www.ebsco.com/research-starters/military-history-and-science/russo-ukrainian-war
11. Vodovozov, S. A. (2026). View of Russia in the post-Cold War era: Geopolitical dynamics and the search for global relevance. *Acjol.org*. https://www.acjol.org/index.php/aku/article/view/3422/3356
12. Walker. (2022). *End of Cold War | EBSCO*. EBSCO Information Services. https://www.ebsco.com/research-starters/history/end-cold-war


Daxil oldu: 29.10.2025
Qəbul edildi: 05.01.2026